# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 272** **Bakı şəhəri 22 may 2024-cü il**

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində Bakı Hərbi Kollecinin, Gəncə Hərbi Kollecinin və Naxçıvan Hərbi Kollecinin yaradılması haqqında**

"Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanının 1-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində Bakı Hərbi Kolleci, Gəncə Hərbi Kolleci və Naxçıvan Hərbi Kolleci yaradılsın.

**2.** Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki aşağıdakı xüsusi təyinatlı təhsil müəssisələrinin nizamnamələri təsdiq edilsin:

2.1. "Bakı Hərbi Kollecinin Nizamnaməsi" (1 nömrəli əlavə);

2.2. "Gəncə Hərbi Kollecinin Nizamnaməsi" (2 nömrəli əlavə);

2.3. "Naxçıvan Hərbi Kollecinin Nizamnaməsi" (3 nömrəli əlavə).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2024.- 26 may, № 108.- S.8.